**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İBTİDAİ SİNİFLƏRİN AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ DİNLƏMƏ MƏTNLƏRİNDƏN İSTİFADƏ ÜZRƏ İŞİN SİSTEMİ

İxtisas: 5801.01 – Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Azərbaycan dilinin tədrisi metodikası)

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Nərgiz Ruslan qızı Ağayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan dili və onun tədrisi texnologiyası" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | Pedaqogika elmləri doktoru, dosent<br>**Vaqif Taqdıq oğlu Qurbanov** |
| Rəsmi opponentlər: | Filologiya elmləri doktoru, professor<br>**Akif Kazım oğlu İmanlı**<br><br>Pedaqogika üzrə fəlsəfə doktoru, dosent<br>**Ənvər Məhəmməd oğlu Abbasov**<br><br>Pedaqogika üzrə fəlsəfə doktoru, dosent<br>**Sevinc Məhəmməd qızı Həsənova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | tarix elmləri doktoru, professor<br>**Cəfər Məmməd oğlu Cəfərov** |
| Dissertasiya şurasının elmi katibi: | pedaqogika üzrə fəlsəfə doktoru, dosent<br>**Mələk Əlislam qızı Zamanova** |
| Elmi seminarın sədri: | pedaqogika elmləri doktoru, professor<br>**Nabat Beydulla qızı Cəfərova** |

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Tədqiqatın mövzusu metodik baxımdan böyük aktuallıq daşıyır. Dil xalqın varlığıdır. Dil məlumatları, informasiyanı mənimsəmək üçün başlıca alət hesab olunur. İnsanların bir-biri ilə əlaqə, münasibət yaratmaları üçün dil mühüm ünsiyyət vasitəsidir. Nitqin dil anlayışı ilə qarşılıqlı əlaqəsi onların bir-birini tamamlaması anlamına gətirib çıxarır. Eyni zamanda dil və nitq insanların bir-birlərinə davranışı, danışıq qabiliyyətləri ilə də bağlıdır. Dil cəmiyyətdə insanlar arasında ünsiyyət vasitəsi olduğuna, cəmiyyətin bütün üzvlərinə eyni dərəcədə xidmət etdiyinə görə mövcuddur.

Dil cəmiyyətin varlığının ayrılmaz əlamətidir, bütövlüyün komponentidir. Dilin dörd: nominativ, kommunikativ, məlumatverici və tənzimedici funksiyası da məhz insan cəmiyyətinə xidmət edir. Fəaliyyət prosesində dil əgər, həyata tətbiq edilmirsə, cansızdır. Dilin ümumiliyi, universallığı, ünsiyyət vasitəsi və fikir mübadiləsi kimi cəhətləri onun praktik mahiyyətini göstərir. Ümummili lider Heydər Əliyev ana dilimiz haqqında demişdir: "*Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir, şəxsən mən öz ana dilimi çox sevirəm və bu dildə danışmağımla fəxr edirəm*"[1]

Azərbaycan dilinin daha yaxşı inkişafı məqsədilə Ümummilli liderimiz Heydər Əliyev və onun davamçısı İlham Əliyevin göstərişi əsasında "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli, 506 saylı fərman,[2] "Azərbaycan Respublikasının dövlət dili haqqında" 2 yanvar 2003-cü ildə qüvvəyə minmiş Qanun,[3] "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Döv-

---

[1] Abdulrazaqova, N. Heydər Əliyev və ana dilimiz – Bakı: // – Respublika. −14 dekabr . – 2012, – s.10.

[2] Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında // – Bakı: – 18 iyun 2001.

[3] Azərbaycan Respublikasının dövlət dili haqqında Qanun // – Bakı: – 2 yanvar 2003.

lət Proqramı haqqında (2013-2020-ci illər)” 2012-ci il 23 may tarixli 2236 nömrəli sərəncamlar[4] qəbul edilmişdir.

“Azərbaycan dili” fənni ümumtəhsil məktəblərinin ibtidai təhsil səviyyəsində tədris olunmaqla, şagirdlərə ana dilində düzgün oxumağı yazmağı öyrədir, onlarda nitq mədəniyyətinin formalaşmasına xidmət edir. Şagirdlər bu fənnin vasitəsi ilə milli mədəniyyət nümunəsi kimi ana dilini öyrənir, onun səs sisteminə, üslubi-qrammatik xüsusiyyətlərinə, lüğət ehtiyatına yaxından bələd olur. Eyni zamanda bu dildən istifadə edərək şagirdlərdə öyrənəcəkləri digər fənlərin daha yaxşı mənimsəmələri ilə bağlı potensial genişləndirilir.

Tədqiqatda qeyd edilir ki, ibtidai siniflərdə Azərbaycan dilinin tədrisi prosesində dinləmə və oxu bacarıqlarının necə inkişaf etdirilə biləcəyi, oxu mədəniyyətinin yaradılması istiqamətində hansı işlərin görülməsi son illərdə əhəmiyyətli bir araşdırma mövzusu olmuşdur. Bu sahədə aparılan araşdırmalarda dinləmə, danışma, oxu bacarıq və vərdişlərinin, dinləmə mədəniyyətinin, oxu sənətinin yaradılması istiqamətində səmərəli texnologiyalardan istifadənin əhəmiyyəti əsaslandırılır. Dinləmə və oxu bacarıqları cəmiyyətin mədəni quruluşu, bu prosesdə tətbiq ediləcək fəaliyyətlər, dinləmə bacarıqlarını inkişaf etdirmək üçün strategiya və texnikaların tətbiqi, müəllimlərin bu sahədə bilik və bacarıqlara sahib olması ilə bağlı bir sıra amillərlə bağlıdır.

Araşdırma zamanı aydın olur ki, müəllimin bütün fəaliyyəti ona yönəldilməlidir ki, şagird dinləmənin, oxunun onun həyatındakı əhəmiyyətini dərk etsin, o, düşünsün ki, oxunan mövzular vasitəsi ilə çox məlumat almaq, dünyagörüşünü formalaşdırmaq mümkündür.

Azərbaycan dili təlimində aparılan islahatlar məzmun xətlərinin yenidən qurulması üzərində və metodlarının optimal seçilməsi əsasında aparılmalıdır. Məzmun xətləri ümumi təlim nəticələrinin reallaşdırılması üçün müəyyən olunan fənn kurikulumunun zəruri hissəsidir və şagirdlərin qazanacağı bilik və bacarıqları daha aydın

[4] Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında (2013-2020-ci illər) – Bakı: 23 may 2012.

təsvir etmək və onları sistemləşdirməyə xidmət edir. Respublikanın ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisinin əsas məqsədi şagirdlərdə hərtərəfli nitq bacarıqları yəni, nitq mədəniyyəti formalaşdırmaqdan ibarətdir. Təhsilini başa vurmuş hər bir şəxs aydın və səlis nitqə malik olmalı, öz fikir və düşüncələrini şifahi və yazılı formada sərbəst ifadə etməyi, başqaları ilə ünsiyyət qurmağı, müəyyən problemlə bağlı müzakirə etməyi və müəyyən məqamda söylənilmiş mülahizələri ümumiləşdirməyi bacarmalıdır. İbtidai sinif şagirdlərinin şifahi nitqi üzərində aparılan müşahidələrdən aydın olur ki, onların əksəriyyətinin dinləməsi, oxusu və danışığı müasir tələblərə cavab vermir. Monotonluq, ifadəlilik yaradan normalara əməl olunmaması və s. qüsurlara şagirdlərin danışığında və oxusunda tez-tez təsadüf olunur. Bu qüsurlar, ilk növbədə, ibtidai siniflərdə şagirdlərin nitqinin zənginliyi və ifadəliliyi üzərində sistemli və məqsədəuyğun işin aparılmaması ilə bağlıdır.

Tədqiqatdan aydın olur ki, ibtidai sinif dərsliklərində bədii mətnlər tədris olunarkən bədii vasitələr üzərində zəif iş aparılır, mətndəki bədii təsvir vasitələrinin tapılmasına diqqət yetirilmir. Müəllimlərin əksəriyyəti məzmunun dərk edilməsinə daha çox diqqət yetirdiklərindən, əsərdəki obrazlılıq və bədiilik şagirdlərə çatdırılmır və mənimsədilmir. Belə olduqda şagirdlər dinlədikləri və oxuduqları bədii mətnlərdəki sözlərin bədii gözəlliyini və təsirini duymur, nitqində onlardan istifadə edə bilmirlər.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin əsas obyektini I-IV siniflər üzrə Azərbaycan dili təlimində şagirdlərin yaş səviyyəsinə uyğun olaraq dinləmə mətnlərinin tədrisi üzrə aparılan işlər təşkil edir. Tədqiqatın predmetini isə Azərbaycan dili təlimində dinləmə mətnlərinin tədrisində aparılan işlərin prinsipləri və qanunauyğunluqları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi ibtidai siniflərin Azərbaycan dili dərslərində dinləmə mətnlərinin didaktik imkanlarını araşdırmaq və səmərəli yollarını müəyyənləşdirməklə təcrübəyə zəruri istiqamətlər verməkdən ibarətdir. Həmin məqsəddən irəli gələn vəzifələr aşağıdakı kimi müəyyənləşdirilmişdir:

– Dərsliklərdə dinləmə mətnlərinin məzmun anlayışı və didaktik imkanlarını araşdırmaq;

– I-IV sinif Azərbaycan dili dərsliklərinin və müəllim üçün metodik vəsaitlərin (MMV) mövzu baxımdan didaktik əsaslarını təhlil etmək;

– Mövzu baxımdan məktəb təcrübəsinin diaqnostik, formativ və summativ cəhətlərini meydana çıxarmaq; təcrübəyə yeni iş sistemi təqdim etmək.

**Tədqiqat metodları** Tədqiqatda aşağıdakı metodlardan istifadə olunmuşdur: nəzəri təhlil, müsahibə, müşahidə, pedaqoji eksperiment, statistik metodlar və s.

İşçi fərziyyənin məqsədəuyğunluğunu sübuta yetirmək məqsədilə müəyyənedici, öyrədici və yoxlayıcı eksperimentlər keçirilmişdir. Eksperimentlər 2014-2021-ci illərdə Bakı şəhəri üzrə 49, 114, 115, 128, 137, 220 nömrəli tam orta məktəblərin ibtidai sinif müəllimlərinin fəal köməyi və iştirakı ilə keçirilmişdir. Eksperiment zamanı 300-dən çox şagird əhatə olunmaqla 16 müəllimin dərsi müşahidə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar** Müdafiəyə dissertasiya işinin aşağıdakı əsas müddəaları təqdim edilir:

– Dinləmə mətnləri əsas mətnlərin məzmununun mənimsədilməsində motivasiya nümunəsinə çevrilir;

– Azərbaycan dili dərslərində dinləmə mətnləri üzrə qurulan təlim işi elmi biliklərin anlayışlara çevirməsində güclü vasitədir;

– Dinləmə mətnləri düzgün, ifadəli oxu vərdişlərinin formalaşdırılmasına təkan verir;

– Dinləmə materialları əsasında şagirdlərdə təhlil-tərkib, analiz-sintez bacarıqları yaradılır;

– Dinləmə materialları şifahi və yazılı nitqin inkişaf etdirilməsi imkanlarına malikdir;

– Dinləmə materiallarının şərti ifadə nümunəsi olaraq inşaya çevrilmək imkanları geniş didaktik yoldur;

– Dərsliklərdəki dinləmə materialları üzərində eyni zamanda oxu, yazı və nitq materiallarından səmərəli istifadə şagirdlərin nitqini zənginləşdirir, təfəkkürünü dərinləşdirir, dünyagörüşünü genişləndirir.

**Tədqiqatın elmi yeniliyi** İlk dəfə olaraq, dinləmə mətnlərinin üzərində aparılan işlərin pedaqoji-psixoloji şərtləri təhlil edilir, habelə onların əsasında standartların reallaşdırılması və nəticələri ilə metodik təfəkkür zənginləşdirilir. Azərbaycan dili dərslərində dinləmə mətnləri üzərində didaktik işlərin sferasının düzgün müəyyənləşdirilməsi və standartların qabaqcıl təcrübəyə əsaslanan interaktiv metodlarla reallaşdırılması nəticə etibarilə şagirdlərin nitq və təfəkkürünün kurikulum tələbləri baxımından inkişafına müsbət təsir göstərir.

**Tədqiqat işinin nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti dinləmə mətnlərinin şagirdlərdə bilik, bacarıq və vərdişlər aşılamaq, etik-estetik keyfiyyətlər formalaşdırmaq və elmi dünyagörüşü aşılamaq, tərbiyə etmək cəhətdən imkanlarının ümumiləşdirilib nəzəriyyə şəklinə salınmasıdır. Tədqiqatın praktik əhəmiyyətinə tədqiqatın alınan nəticələrindən yeni məzmun standartlarının yaradılması, məzmun xətləri arasında olan inteqrasiyanın tərtib olunması, müəllim üçün metodik vəsaitlərin təkmilləşdirilməsi, təlim prosesinin intensivliyinin yüksəldilməsi, gözlənilən nəticələrin son nəticələrə çevrilməsi, təkmilləşmə kursları üçün tövsiyələrin hazırlanması və s. məsələlər aiddir.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas nəticələri AAK-ın tələblərinə uyğun olaraq müvafiq jurnallarda çap olunmuş 11 tezis (o cümlədən 1-i xaricdə çap olunmuşdur), 9 məqalə (o cümlədən 1-i xaricdə) çap olunmuşdur, eyni zamanda Respublika elmi konfranslarının materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Giriş – 8 səhifə, 14.459 işarə, I fəsil – 70 səhifə, 132.162 işarə (1.1. – 18 səhifə, 35.048 işarə; 1.2. – 17 səhifə, 32.002 işarə; 1.3. – 24 səhifə, 46.446 işarə; 1.4. – 11 səhifə, 18.369 işarə), II fəsil – 61 səhifə 95.453 işarə (2.1. – 9 səhifə, 16.901 işarə; 2.2. – 19 səhifə, 34.201 işarə; 2.3. – 21 səhifə, 27.693 işarə; 2.4. – 12 səhifə, 16.628 işarə), nəticə – 4 səhifə, 5.413 işarə, istifadə olunmuş

ədəbiyyat siyahısı – 11 səhifə olmaqla dissertasiya işinin ümumi həcmi 156 səhifə və 247.487 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları göstərilir, müdafiəyə çıxarılan müddəaları, elmi yeniliyi açıqlanır, tədqiqatın nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat verilir.

Dissertasiyanın I fəsli **"Dinləmə mətnlərindən istifadənin metodik əsasları baxımından tədqiqatın ümumi məsələləri"** adlanır. I fəsil 4 paraqrafdan ibarətdir. 1.1. paraqrafı **"Dinləmə mətni anlayışının mahiyyəti və Azərbaycan dili təlimində onun araşdırılması vəziyyəti"** adlanır. Bu paraqrafda dinləmə mətnlərinin ibtidai sinif şagirdlərinin nitqinin, intellektual-mənəvi inkişafının, əxlaqi vərdişlərin formalaşmasında əsas əhəmiyyətindən bəhs olunur. Dinləmə mətnləri güclü təlim-tərbiyə vasitəsi olmaqla yanaşı, həmçinin nitq inkişafının əsasıdır. İbtidai sinif şagirdlərində əxlaqi vərdişlərin formalaşmasında, zəhmətə, biliyə və elmə həvəs yaradılmasında mühüm əhəmiyyət kəsb edən dinləmə mətnləri, o cümlədən nitq inkişafı üçün də əvəzsiz rol oynayır. Belə ki, bədii əsərdə yazıçının söz ehtiyatı zəngin olduğu üçün o, hadisələri dəqiq, incə, obrazlı və orijinal üsulda ifadə imkanına malikdir. O, sözlərin leksik-semantik zənginliyindən tutmuş intonasiya və ritm incəliklərinə qədər bütün dil vasitələrinə müraciət etməkdə sərbəstdir. Nitqin zənginliyinin əsas əlaməti onda işlənən sözlərin təkrarçılığa yol vermədən kəmiyyətcə çoxluğudur. Dil, nəzəri dilçilik, o cümlədən Müasir Azərbaycan dilinin nəzəri bazası, Azərbaycan dilinə dair fundamental elmi tədqiqatlar, dilin elmi səviyyədə öyrənilməsi, ədəbi dilin vahid normaları ümumi nitq məfhumundan kənarda deyildir və nitqin elmi əsasını təşkil edir. Azərbaycan dili nitq inkişafı üzrə aparılan işlərin yüksək nəticəsi olaraq qiymətləndirilməlidir. Azərbaycan dilinin lüğət ehtiyatını dərindən bilmədən, qrammatik və semantik cəhətdən sözlərin təbiətinə baxmadan, cümlədə yeri-yerində işlətməyi və

rabitəli mətnə daxil etməyi bacarmadan nitqin dolğun ifadəsi yarana bilməz. Mükəmməl savada, daimi mütaliəyə və geniş dünyagörüşünə malik şəxsin söz ehtiyatı keyfiyyət və kəmiyyətcə çox zəngin olur. Odur ki, şair və yazıçıların bədii nitqinin zənginliyi məhz kiçikyaşlı məktəblilərin nitq inkişafına qida verən mənbədir. Uşaq poeziyasına diqqət və qayğı göstərən A.Şaiq, S.Vurğun, M.Müşfiq, M.Ə.Sabir, A.Səhhət, M.Seyidzadə, M.Dilbazi, O.Sarıvəlli, X.Əlibəyli və b. zəngin bədii irsi ibtidai sinif şagirdlərinin intellektual-mənəvi inkişafınında mühüm vasitəsi kimi özünəməxsus yer tutur.

Paraqrafda qeyd edilir ki, şagird ana dilində yazılmış bədii əsərləri dinləmək, oxumaq və öyrənməklə öz zehnini yeni fikir, ideya, məfhum, təsəvvür və surətlərlə zənginləşdirir. Hazırda Azərbaycan dili dərsliklərindəki dinləmə mətnləri tərtib olunarkən aşağıdakı didaktik prinsiplər gözlənilməlidir:

1. Mövzuda yaradıcılıq
2. Tərbiyəedicilik
3. Öyrədicilk
4. İnkişafetdiricilik
5. Təsiredicilik
6. Elmi-pedaqoji dünyagörüşü aşılamaq və s.

**“Dinləmə mətnlərindən istifadənin pedaqoji-psixoloji əsasları” adlanan** 1.2. paraqrafında dinləmə mətnlərinin ibtidai sinif şagirdlərinin mənəvi və psixoloji inkişafında rolu, görkəmli dilçi alimlərin, pedaqoq və psixoloqların dinləmə mətnləri ilə bağlı olan dəyərli məsləhətləri, fikirləri və s. məsələlər şərh olunur. Dil təlimi xüsusi bir elm sahəsidir. Onun da digər elmlər kimi qanunları, qanunauyğunluqları, prinsip və metodları var.

Bu barədə ənənəvi təlim linqvodidaktları prof. B.Əhmədov[5], Ə.Əfəndizadə[6], H.Balıyev[7] və başqaları geniş bəhs etmişlər.

---

[5] Əhmədov, B.A. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları / B.Əhmədov – Bakı: Maarif, – 1973. – 119 s.

[6] Əfəndizadə, Ə.R. Azərbaycan dili təliminin metodları haqqında / ADƏT, – Bakı: – 1978. №1. s.31-39.

Dinləyib-anlama və danışma məzmun xətti ilə digər məzmun xətlərinin əlaqəsi barədə prof. V.Qurbanov yazmışdır: "*Məzmun xətti bir-birilə sıx əlaqədə olan bir ağacın kökləri, budaqları və qollarıdır; ağacın quruluşu (morfologiyası) necədirsə, məzmun xətti də elə o cürdür.*"[8] Əlbəttə, düzgün danışmaq üçün diləmək və anlamaq lazımdır. Deməli, hər şey dinləməkdən başlayır. Bu proses yalnız birinci məzmun xəttində deyil, oxuda, yazıda, dil qaydalarında da belədir. Eyni şəkildə bunlar, yəni məzmun xətləri biri-birlərini də doğururlar. Danışma üçün oxu, yazı və dil qaydaları da zəruri vasitələrə çevrilir. Bunları dərk etmədən metodikada heç bir şeyə əsaslı qiymət vermək olmaz.

Professor N.Cəfərova oxu və dinləmə ilə bağlı yazır: *"Şagirdlər sinifdən-sinfə keçdikcə onlara təqdim edilən mətnlər müəllim tərəfindən diqqətlə təhlil edilib, seçilməlidir. Bu zaman müəlim sinifdəki şagirdlərin idrak səviyyəsini, əldə edilən nailiyyətləri və boşuqları nəzərə almalıdır."* [9]

Professor N.Abdullayev dinləmənin əsas şərtinin mədəni nitqə yiyələnmək olduğunu hesab edərək yazır: "*Mədəni nitqi şərtləndirən əsas amillərə, nitq mədəniyyəti və ədəbi dil normaları, nitq mədəniyyəti və danışıq etikası, mədəni nitqin ictimai və sosial-iqtisadi inkişafdakı rolu, nitq mədəniyyətinə yiyələnməyin yolları, üsulları və digər məsələlər daxildir*".[10]

Nitq və təfəkkürün qarşılıqlı əlaqədə bir-birinə təsir problemi Azərbaycan psixoloqlarının da tədqiqat obyekti olmuşdur. Bu mənada Ə.Bayramov və Ə.Əlizadənin "Psixologiya" kitabında mövcud fikirlər ümumiləşdirilərək bu şəkildə öz ifadəsini tapır: "*...nitqli təfəkkür sayəsində insan xarici aləmin bilavasitə qavrayış səviyyəsində əks etdirilməsindən xaricə çıxır, mürəkkəb əlaqə və*

---

[7] Balıyev, H.B. Azərbaycan dilinin tədrisi metodikası / H.B. Balıyev, A.H.Balıyev – Bakı: Elm və Təhsil, – 2019. – 380 s.

[8] Qurbanov, V.T. Oxu və nitq inkişafı təlimi / V.T.Qurbanov.– Bakı: Müəllim, – 2021, s.83.

[9] Cəfərova N. Oxu təliminin metodikası / N.Cəfərova. – Bakı: ADPU, – 2021,s.3-4

[10] Abdullayev, N.Ə. Nitq mədəniyyətinin əsasları / N.Ə.Abdullayev. – Bakı: Elm və təhsil, – 2013. – s.9-10.

*münasibətləri əks etdirir, nəticə çıxarır, nəzəri məsələləri həll edir, onda anlayışlar təşəkkül tapır. Təfəkkürün bu forması insanların biliyi mənimsəməsinin, ondan istifadə etməsinin əsasında durur və insanın mürəkkəb idrak fəaliyyəti üçün zəmin təşkil edir*".[11]

L.V.Şerba nitq fəaliyyətini dil hadisəsinin birinci aspekti kimi təqdim etmiş, proses olaraq dinləmə və anlama məzmunu daşıdığını bildirmişdir.[12]

Gürcü psixoloqu D.N.Uznadze yazır ki: "*Uşaq əvvəllər eşitmə-diyi sözü və qrammatik formanı birdən-birə heç vaxt işlədə bilməz. Gərək əvvəl eşitsin, görsün ki, sonra da nitqində işlədə bilsin"*.[13]

Psixoloq D.B.Elkoninin təbirincə, fonematik eşitmə sözdə ayrı-ayrı səslərin eşidilməsi və daxili tələffüz prosesində sözlərin səs formasının təhlilinin aparılması bacarığıdır.[14]

Nitq və təfəkkürün əlaqəsi məsələsi N.İ.Jinkinin "Nitq mexanizmləri" əsərində daha ətraflı şərh olunur. Onun fikrincə, nitq ünsiyyət prosesindən ayrı və təfəkkürlə bağlı əlaqədən kənarda öyrənilə bilməz. Sözün nitq və ünsiyyət prosesinin düzgün, anlaşıqlı və məzmunlu qurulmasındakı rolu üzərində dayanan psixoloq yazır: "*Məlumat çoxsaylı sözdən ibarət leksikondan söz seçimidir. Lüğət tərkibində nə qədər çox söz varsa, məlumat dolğun olacaq, yəni informasiya daha dəqiq veriləcək.*" [15]

Paraqrafdan aydın olur ki, idrak və təlim yolları oxşar cəhətlərə malikdir. Belə ki, qavrama idrak yolundakı canlı seyr ilə, dinləmə-anlama mücərrəd təfəkkürlə, tətbiqetmə isə praktika ilə bağlıdır. Şagirdlər mətnlərdə cərəyan edən hadisələri bədii obrazların vasitəsi ilə daha səmərəli qavrayır. Hekayə, şeir, təmsil, nağıl və digər bədii nü-

---

[11] Bayramov, Ə.S. Psixologiya. Ali məktəblər üçün dərslik / Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. – Bakı: Çinar-Çap, – 2002. – s.8.

[12] Щерба, Л. В. Языковая система и речевая деятельность / Л. В. Щерба. – М.: Наука, 1974. – 428 с.

[13] Узнадзе, Д.Н. Психологические исследования / Д.Н.Узнадзе. – М.: – 1966. – с.35.

[14] Элконин Д.Б. Как учить детей читать. М.: Изд. Знане, – 1976, – с.75.

[15] Жинкин, Н.И. Механизмы речи / Н.И.Жинкин. – М.: Издательство Академии педагогических наук, – 1958. – с.23.

munələrin təsiri nəticəsində uşaqların cəmiyyət və təbiətdən aldıqları təsəvvür və bilikləri daha da dəqiqləşir, nitqləri obrazlı ifadələr hesabına zənginləşir. Oxunan materialın məzmunu şagirdin yaddaşına bütövlükdə həkk olunur, o, bədii mətnin müxtəlif epizodlarını, ayrı-ayrı obrazlarını, onların hərəkətlərini, məntiqi ardıcıllıqla izləyir, təhlil edir, daxili məna əlaqələrini öyrənir və rabitəli nitqlə ardıcıl, bütün incəlikləri ilə verməyə çalışır. Bədii mətnlər kiçikyaşlı məktəblilərə düzgün, obrazlı nitq nümunəsi verir, bu zəmində onların intellektual-mənəvi inkişafına şərait yaranır.

**“Azərbaycan dili üzrə mövcud dərsliklərdə və müəllim üçün metodik vəsaitlərdə (MMV-də) dinləmə bacarıqları probleminin qoyuluşu”** 1.3. paraqrafında I-IV siniflər üzrə Azərbaycan dili dərsliyində və müəllim üçün metodik vəsaitdə (MMV) verilən mətnlərin müşahidə, müqayisə və təhlillərindən geniş bəhs olunur. Təhlillər onu göstərir ki, dinləmə mətnləri didaktik cəhətdən əsas mətnə qoyulan ideyanın ya davamı ya da genişləndirilməsindən ibarətdir. Hətta, dinləmə mətnləri içərisində məzmun və mövzu etibarilə əsas mətndən yüksək olanları da vardır. Məsələn, III-IV sinif Azərbaycan dili fənni üzrə müəllim üçün metodik vəsaitlərdə (MMV) “İdman terminləri”, “Qocalar və uşaqlar”, “Beş qiymət”, “Qələm”, “Hörümçək adam”, “Alim və cahil”, “Bir ovuc torpaq”, “Bayrağım”, “Tahir babanın nəvələri”, “Eybəcər şəkillər”, “Sözün yeri”, “Dərviş və yolçu” və s. mətnlər özünün maraqlılığı ilə diqqəti çəkmiş olur.

Şagirdlərin elmi pedaqoji dünyagörüşünün genişlənməsinə daha çox təsir edən mətnlərə bunları misal göstərə bilərik: “Ay niyə gecə işıq saçır”, “Çay”, “Qanadlı sözlər”, “Hasan Paşa ilə Keçəl Həmzənin dialoqu”, “Dürat gedib, Qırat durur”, “Qədim yunan alimləri” və s.

Hazırda istifadə olunan hər bir sinif üzrə “Azərbaycan dili” dərsliklərində və metodik vəsaitlərdə (MMV) müəllimlər və tədqiqatçılar məzmun xətti, məzmun standartı, o cümlədən dinləmə-anlama, danışma, oxu, yazı, dil qaydaları, əsas standart, alt standart, nəzəri məlumat, tədqiqat sualı, motivasiya, üsullar, qiymətləndirmə, eyni zamanda, əsas mətn, dinləmə mətni və s. istiqamətlərdə fəaliyyət göstərirlər. Kurikulum dərslikləri interaktiv və inteqrativ təlim məq-

sədləri üçün didaktik imkanlı hazırlanmışdır. Belə dərsliklər mətnlər üzərində aparılan əməliyyatlar və onların təlim nəticələrinin yeni nitq materialına çevrilməsi ilə xarakterizə olunur. Həmin nitq materialları əsasında yeni sözlər, cümlələrin məna təhlili nəticə etibarilə şagirdlərin nitqini zənginləşdirilməsinə səbəb olur.

1.4. **"Problem baxımından məktəb təcrübəsinin öyrənilib ümumiləşdirilməsi"** paraqrafında 2014-cü ildən başlayaraq tədqiqat aparılan Bakının Nizami rayonu Ərəstün Mahmudov adına 220 nömrəli məktəb-liseydə, Sabunçu rayonu Maştağa qəsəbəsi N.Nərimanov adına 128 nömrəli, Səbail rayonu 49 nömrəli, Sabunçu rayonu Elşən Məhərrəmli adına 137 nömrəli, Binəqədi rayonu Azər Məmmədov adına 115 nömrəli və Suraxanı rayonu Abil Səfərov adına 114 nömrəli tam orta məktəblər göstərilmişdir. Bu paraqrafda qeyd olunan məktəblərdə ibtidai sinif müəllimləri ilə anket sorğuları, metodbirləşmə rəhbərləri ilə söhbətlər, məktəb sənədləri ilə tanışlıq və problemlə bağlı dinlənilən dərslərin təhlilləri öz əksini tapmışdır. Təlim prosesi ilə bağlı müşahidələrə, müəllimlərlə sorğuya və şagirdlərlə aparılan şifahi və yazılı işlərə istinadən belə bir qənaətə gəlinir ki:

- Məktəb təcrübəsindən aydın olur ki, müəllimlər dinləmə mətnləri üzərində oxu, yazı və s. çalışmalar, təqdimatlar aparmaqla, qiymətləndirmələr keçirir və bunu ən səmərəli metodik iş hesab edirlər;
- Tədqiqatda verilən məlumata görə, dinləmə mətnləri dərsliklərdə deyil, vəsaitlərdə verildiyindən və əsas mətnlə müqayisədə sistematik xarakter daşımadığından, müəllimlər onun məqsəd və vəzifələrini dərk etməkdə çətinlik çəkirlər;
- Müəllimlərin böyük əksəriyyəti dinləmə mətnləri ilə əlavə mətnlər arasında eynilik qoyur. Əlavə mətnlər imla, ifadə, habelə oxu və yazı üçün də nəzərdə tutulmuşdur. Dinləmə mətnləri isə birinci məzmun xətti üzrə həyata keçirilən təlim fəaliyyətidir və s.

Dissertasiyanın II fəsli **"Dinləmə materialları üzrə qurulan işin elmi-didaktik əsasları"** adlanır və 4 paraqrafdan ibarətdir. **"Azərbaycan dili dərslərində ibtidai sinif şagirdlərinin təlimə maraq hissinin yüksəldilməsində dinləmə mətnləri üzrə işin əsas istiqamətləri"** adlı 2.1.paraqrafında problemə daha konkret yanaşılaraq qeyd edilir ki, mətn nitq nümunəsi sayılır. Mətn vasitəsilə şagirdlər danışıq nümunəsi

götürür, danışmağı və yazmağı öyrənirlər. Mətnin maraqlı standartlardan bəhs etməsi və onun da üzərində maraqlı ola biləcək rəngarəng işlərin qurulması bütövlükdə şagirdlərdə təlimə, elmə, o cümlədən biliyə maraq hissinin yüksəldilməsinə gətirib çıxarır. Müasir təlimdə maraqlı mətnlərin məzmunu nə qədər əhəmiyyətli rol oynayırsa, metodların, forma, üsul, vasitələrin rəngarəngliyi və bacarıqların həyatiliyi də bir o qədər əhəmiyyətli rol oynayır. Ona görə də burada iki cəhət xüsusi olaraq vurğulanır: 1) Dinləmə mətnlərinin təlimə yaratdığı maraq; 2) Metod, priyom, üsul və vasitələrin maraq yaradıcı rolu. Dinləmə mətnlərinin tədrisində motivasiyadan-problemin qoyuluşundan, tədqiqat suallarından, müzakirələrdən, dialoq-disskusiyalardan, habelə debatlardan istifadə olunur ki, bu da şagirdlər üçün daha da maraqlı sayılır.

Aparılan tədqiqatdan aydın olur ki, dinləmə mətnləri üzrə gerçəkləşdirilən qaydalar, meyarlar əsasında standartlardan gözlənilən ən başlıca nəticə tərbiyədir. Ona da son nəticə kimi təlimə maraq tərbiyəsi, dilə maraq tərbiyəsi, mənəvi tərbiyə strategiyası deyilir. Dinlənilən mətn maraqlı, dinləmə prosesi maraqlı olanda gözlənilən nəticə də maraqlı olur ki, ona da təlimə maraq hissinin yüksəldilməsi deyilir. Metodik-linqvistik ədəbiyyatda nitq anlayışından nitqin hissələri haqqında ümumi məlumat verilərkən izahedici vasitə kimi danışılır. Psixoloji-metodik ədəbiyyatda isə ondan nitq və təfəkkür inteqrativliyi mənasında bəhs olunur.

Paraqrafdan aydın olur ki, hazırda müəllimlərə metodiki kömək məqsədilə yazılan müəllim üçün metodik vəsaitlərin (MMV) məzmununda bütün məzmun xəttlərinin hər birinin nitq və təfəkkürün inkişafetdirilməsi strategiyası durur. Məlumdur ki, dil qaydaları adlanan məzmun xətti, bilik və bacarıq, oxu, dinləyib anlama, münasibət bildirmə, habelə şifahi və yazılı yollarla yaradıcı fəaliyyət və s. tələb edir. Bunların hər biri nitq və təfəkkür əməliyyatlarından bir addım da kənarda qalmır.

**“Dinləmə mətnlərində ifadə və inşalardan istifadə şagirdlərin nitqinin zənginləşdirilməsi vasitəsi kimi”** adlanan 2.2. paraqrafında dinləmə mətnlərinin daha maraqlı didaktik cəhətinin də olduğu şərh olunur. Bu da dinləmə materialının ifadə mətni kimi öyrənilməsi ilə yanaşı, həm də inşaya çevrilə bilmək xüsusiyyətinin ol-

masıdır və rabitəli nitqin inkişafında mühüm rol oynamasıdır. İnteqrativ kurikulumun başlıca tələbi də odur ki, Azərbaycan dili kursuna daxil olan bir vahid bütün digər vahidlərlə əlaqə və vəhdətdə öyrənilsin, son nəticə isə şifahi və ya yazılı inşa bacarıqlarına görə qiymətləndirilsin. Çünki inşa nitq və təfəkkür inkişafında zirvə sayılır. Tədqiqatda qeyd edilir ki, bu mənada belə bir ideyanın aşağıdakı didaktik cəhətləri nəzərə alınmalıdır:

1. Dinləmə materialı oxu, yazı, danışıq, qiymətləndirmə, məqsəd və funksiya daşıyıcısı olsa da, həmçinin ifadə mətni kimi öyrənilməlidir.
2. Dinləmə mətni rabitəli mətn olduğu üçün onun üzərində fonetik, leksik cəhətdən nitq inkişafı əməliyyatları aparıla bilər.
3. Dinləmə materialı yığcam və ya geniş məzmunlu, həm də ifadə mətnidir. Onun süjetini lazım gəlsə, müvafiq suallarla və ya istənilən əlavələrlə yeniləşdirərək ifadə və inşaya çevirmək mümkündür.

İbtidai siniflərdən dinləyib-anlama və danışma məzmun xətti şagirdlərdə müxtəlif informasiyaları təhlil etməyi, ümumiləşdirmə aparmağı, öz mövqeyini əsaslandırmağı inkişaf etdirir, onun müşahidə etdiyi şəkil, əşya, mənzərə və hadisə əsasında hekayə qurmağı öyrədir, sadə nitq etiketlərinin tanınması, işlənmə yerinin və məqamının anlaşılması, dialoqlarda görüşmə, təşəkkür etiketlərindən istifadə olunmasını təmin edir. Dilə köməkçi vasitələrin - sadə jest və mimik hərəkətlərin işlənmə məqamının müəyyənləşdirilməsini, kiçikhəcmli bədii mətnlərdəki fikri ifadə edərkən onlardan məqsədəuyğun şəkildə istifadə olunması bacarıqlarını inkişaf etdirir. Paraqrafda, eyni zamanda, nitq prosesinin üç mərhələsi qeyd edilir: danışmaq, eşitmək, dərk etmək.

**“Bölmə üzrə qiymətləndirmədə dinləmə mətnlərindən istifadənin imkanları və yolları”** adlı 2.3. paraqrafında qeyd olunur ki, qiymətləndirmə standartları məzmun standartlarının hansı səviyyədə reallaşdığını yoxlamaqla baş vermiş dəyişikliklərin dərəcəsini müəyyən edir.[16] Eyni zamanda paraqrafda qeyd edilir ki, Azərbaycan dili üzrə qiymətləndirmə hər bir məzmun xətti üzrə ayrıca aparılmalı, daha sonra orta qiymət çıxarılmalı və beləliklə, şagirdin səviyyəsi

---

[16] Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası // – Bakı: –13 yanvar 2009.

müəyyən olunmalıdır. Belə bir qiymətləndirmə şagirdin yalnız Azərbaycan dili üzrə deyil, ümumiyyətlə, təhsilindəki uğur və geriləmələrin səbəbini aydınlaşdırmağa və müvafiq ölçülər götürməyə imkan verir. Belə ki, istənilən dərsdə şagird oxuyur, dinləyir, yazır, danışır. Əgər şagirdin oxu və ya dinləmə bacarığı zəifdirsə, deməli, onun anlama (qavrama, mənimsəmə) qabiliyyəti zəifdir. Əksinə, şagirdin yazı və ya danışma qabiliyyəti güclüdürsə, deməli, onun özünüifadə qabiliyyəti güclüdür. Oxu və dinləmə üzrə kiçik və böyük summativ qiymətləndirmələr yeni mətn əsasında qoyulmuş sual və tapşırıqlar üzrə aparılmalıdır. Dinləmə mətnlərinin qiymətləndirilməsində əsasən, mətni anlama bacarığı əsas götürülməlidir. Yazı üzrə qiymətləndirmə materialı da dinləmə mətni ola bilər, kiçik summativ qiymətləndirmə üçün yoxlama imla və ya inşa formasını da seçmək olar. Danışma üzrə qiymətləndirmə tədris prosesində müşahidə yolu ilə aparılır. Bu zaman danışma bacarığı üzrə summativ qiymətləndirmə formativ qiymətləndirmələrin nəticəsi əsasında aparılır. Dil qaydaları üzrə kiçik summativ qiymətləndirmə testlər əsasında aparılır, çünki müvafiq mərhələdə qazanılmış dil qaydaları üzrə bacarıqları yoxlamaq üçün uğurlu mətn tapmaq çox çətindir.[17] Formativ qiymətləndirmənin nəticələri jurnalda qeyd olunmadığından müəllimlər şagird nailiyyətlərinin gündəlik monitorinqi üçün müxtəlif qiymətləndirmə cədvəllərindən istifadə etməlidirlər. Dinləmə bacarığının qiymətləndirilməsi həm müşahidə, həm də dinləmə mətni üzrə sual və tapşırıqlar, testlər əsasında aparılır.

**"Eksperimentin təşkili və nəticəsi"** adlanan 2.4. paraqrafından aydın görünür ki, təklif olunan metodik yanaşmanın səmərəliliyi yoxlanılmış və sübuta yetirilmişdir. Nəticənin obyektivliyi və faydalılığı üçün konkret şərtlər diqqətdə saxlanılaraq fəaliyyət planı qurulmuş və prosesin təşkili həmin istiqamət üzrə aparılmışdır:

1. Problemlə əlaqədar olaraq Bakı şəhəri üzrə tam orta məktəblərin (220, 128, 114, 49, 115, 137 nömrəli məktəblər) ibtidai sinif-

---

[17] İsmayılov, R. Azərbaycan dili. Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün metodik vəsait / R.İsmayılov, G.Orucova, N.Qaragözova. – Bakı: Altun Kitab, – 2018, – s.16.

lərində pedaqoji eksperiment aparılmışdır. Pedaqoji eksperimentə müəllimlər və məktəblilər cəlb olunmuşdur.

2. Yoxlayıcı eksperiment Bakı şəhəri 49 və 114 nömrəli tam orta məktəblərin III-IV sinif şagirdləri arasında aparılmışdır.

3. Pedaqoji eksperimentin təşkili zamanı ilk müəyyənedici mərhələ də yazılı anket sorğusu, sonuncu mərhələdə isə test tapşırıqlarından istifadə olunmuş və eksperimentator prosesə birbaşa özü rəhbərlik etmişdir.

4. Pedaqoji eksperiment aparılan ümumtəhsil məktəblərində, o cümlədən siniflərdə kadr təminatı, maddi-texniki baza, tədris avadanlığı kimi məsələlərdə balansın qorunması diqqət mərkəzində saxlanılmışdır.

5. Eksperimental və kontrol (nəzarət) siniflər müəyyənləşdirilmişdir.

6. Pedaqoji eksperimentlə bağlı təlimat seminar vasitəsilə prosesin iştirakçılarına ötürülmüşdür.

7. Eksperimental və kontrol siniflərdə vahid tədris materialından istifadə təmin olunmuşdur.

8. Pedaqoji eksperimentin təşkili zamanı kənar müdaxilələrin qarşısını almaq üçün öncədən lazımi tədbirlər görülmüşdür.

**Müəyyənedici** eksperimentdə aşağıdakı suallara cavab almaq məqsədilə müəllimlər arasında anket sorğusu keçirilmişdir:

1) Dinləmə mətnləri üzərində hansı əməliyyatlar keçirmisiniz?

2) Dinləmə mətnlərinin tədrisində əsas məqsəd nədir?

3) Əsas mətn ilə dinləmə mətni arasında olan fərq nədən ibarətdir?

4) Sizcə, dinləmə mətnlərinin materialından yalnız motivasiya vasitəsi kimi istifadə olunması fikri düzgündürmü?

5) Dinləmə mətnlərindən əsas mətnə əlavə kimi istifadə olunması fikri nə dərəcədə əsaslıdır?

6) Dinləmə mətnlərinin həcminin əsas mətnə nisbətən yığcam olması nə ilə əlaqədardır?

7) Dinləmə mətnlərinin məzmunu sizi qane edirmi?

8) Sizcə, dinləmə mətnlərindən icra tələbləri verilsəydi necə olardı?

9) Dinləmə məzmun xətti ilə dinləmə mətninin yaxınlığı varmı?

10) Sizin fikrinizcə, dinləmə mətnlərinin üzərində nitq inkişafı ilə əlaqədar hansı əməliyyatların aparılması təlim işinə daha çox fayda verər?

Tədqiqat aparılan zaman **öyrədici** eksperimentin təşkilində müəllimlərə təlimatlandırıcı seminarlar keçirilmiş, məlumat, təcrübə mübadiləsi aparılmış, şəxsi metodika təklif olunmuşdur: 1) MMV-də dinləmə tapşırıqları dinləmə-anlama kimi qəbul edilməli və danışmağa qədər standartlarla da reallaşdırılmalıdır; 2) Sözlərin, adların və ifadələrin ədəbi tələffüzünün, (yəni intonasiyası və orfoepiyası ilə müqayisədə) öyrədilməsi birinci standartın tərkib hissəsi kimi qəbul edilməlidir. Bunlar da, öz növbəsində müəllim üçün metodik vəsaitlərdə (MMV) olanlardan daha geniş imkanlar deməkdir. Bu paraqrafdan aydın olur ki, dərsliklərdəki əsas mətnin üzərində motivasiya qurulur, mətn oxunub təhlil olunaraq tapşırıqlar həyata keçirilir. Dinləmə mətninə ehtiyacın haradan yarandığı məlum olmur. MMV-də dinləmə mətnindən sonra "Dərslərin planlaşdırılması" başlığı altında "Tədqiqatın aparılması" tələbi gəlir. Bu tələb də əsas mətnə və dinləmə mətninə aid olur.

Bundan əlavə, paraqrafda təhlillərə əsasən qeyd olunur ki, dərsliklərdə verilən ikinci və ya əlavə mətndə əsas məqsəd şagirdlərə dinləmə və oxu bacarıqları aşılamaqdan ibarətdir. Gözlənilən şagird nailiyyətləri bunlardır: mətni sürətlə, düzgün və şüurlu oxuyur, dinlədiyi fikirlə bağlı münasibətini əsaslandırır, vəziyyətə uyğun olaraq ünsiyyət formalarını dəyişir, müşahidə etdiklərini məntiqi ardıcıllıqla nəql edir və s.

**Yoxlayıcı** eksperiment sonuncu mərhələ kimi aparılan metodiki işin nəticələrinin yoxlanılması və ya dəqiqləşdirilməsi məqsədini daşıyır. Tədqiqatda bu mərhələnin təşkili üçü bacarıqyönümlü tapşırıqlardan istifadə edilmişdir. Pedaqoji eksperimentin nəticələrinin yoxlanılması, dəqiqləşdirilməsi üçün III sinifdə dinləmə mətninə aid olan test tipli çalışmalardan, IV sinifdə isə sual tipli tapşırıqlardan istifadə olunmuşdur.

**Cədvəl 1**
**III siniflərdə dinləmə mətni üzrə aparılan yoxlayıcı eksperimentin nəticələri**

| Şagirdlərin ümumi sayı | Test tapşırıqların nömrələnməsi | Eksperimental siniflərdə tapşırıqları düzgün cavablandıran şagirdlərin sayı | | Kontrol siniflərdə tapşırıqları düzgün cavablandıran şagirdlərin sayı | |
|---|---|---|---|---|---|
| | | Nəfər | Faizlə | Nəfər | Faizlə |
| 84 | I | 80 | 95% | 54 | 64% |
| 84 | II | 78 | 93% | 49 | 58% |
| 84 | III | 81 | 96% | 57 | 68% |
| 84 | IV | 79 | 94% | 66 | 79% |
| 84 | V | 80 | 95% | 57 | 68% |

**Cədvəl 2**
**IV siniflərdə dinləmə mətni üzrə aparılan yoxlayıcı eksperimentin nəticələri**

| Şagirdlərin ümumi sayı | Tapşırıqların nömrələnməsi | Eksperimental siniflərdə tapşırıqları düzgün cavablandıran şagirdlərin sayı | | Kontrol siniflərdə tapşırıqları düzgün cavablandıran şagirdlərin sayı | |
|---|---|---|---|---|---|
| | | Nəfər | Faizlə | Nəfər | Faizlə |
| 93 | I | 89 | 96% | 63 | 68% |
| 93 | II | 92 | 99% | 59 | 63% |
| 93 | III | 91 | 98% | 68 | 73% |
| 93 | IV | 93 | 100% | 77 | 83% |
| 93 | V | 89 | 96% | 66 | 71% |

Cədvəldən göründüyü kimi yoxlayıcı eksperimentin nəticələrində III-IV sinif şagirdlərinin cavabları həm də bacarıqlar şəklində təsnif edilərək sistemləşdirilmişdir. Tədqiqatdan bəlli olur ki, problemlə əlaqədar metodik iş aparılan siniflərdə kiçikyaşlı məktəblilər dinləmə mətninin məzmununu, obrazın xüsusiyyətini müəyyənləşdirmə, izahlı lüğətdən istifadəetmə, inşa, ifadə yazma kimi mürəkkəb bacarıqlar qazanırlar. Cavabların təhlili zamanı aydın oldu ki, şagirdlər əsas sözlə yanaşı, eyni zamanda yaxınmənalı kəlmələrdən də istifadə edirlər. Bu isə şagirdlərdə lüğət fondunun genişliyinin, zənginliyinin göstəricisi kimi dəyərləndirilir. Mətn oxunduqdan və ya dinlənildikdən sonra şagirdlərin həm məzmuna, həm də dinlənilən mətnin orfoepiyasına dair münasibətləri müəyyənləşir. Yoxlayıcı eksperimentdən aydın olur ki, kontrol siniflərdə, eksperimental siniflərə nisbətən, yalnız mətnin məzmununa dair münasibət müəyyənləşir, mətnin dinləmə estetikasına dair səriştə amili diqqətdən kənarda qalır. Bu paraqrafdan aydın oldu ki, dinləyib-anlama və danışma məzmun xətti bütün şagirdlərdə ana dilinin düzgün mənimsənilməsinə, şagirdlərdə dinləmək mədəniyyətinin, dinlədiyini anlama və müstəqil danışıq bacarıqlarının inkişafına böyük təkan verir. Hər bir insan ətraf aləm haqqında məlumatları, təəssüratlarını oxu və dinləmə bacarıqları sayəsində qəbul edir və mənimsəyir. Şagirdlərin öz şifahi nitqlərini qurmaq və fikirlərini sərbəst şəkildə ifadə edə bilmək bacarığı bu məzmun xətti vasitəsilə inkişaf etdirilir.

Dissertasiyanın **“Nəticə”** hissəsində tədqiqat zamanı əldə edilmiş elmi nəticələr aşağıdakı kimi ümumiləşdirilmişdir:

1. Seçilən mövzu və onun daxil olduğu problemin tədqiqi istiqamətində məsələlərin kurikulum sənədlərində qoyuluşu, habelə metodik vəsaitlərdə şərhi, məktəb təcrübəsinin, o cümlədən müəllimlərin pedaqoji hazırlığının öyrənilməsi və s. göstərmişdir ki, dinləmə mətnləri ibtidai siniflər üçün tərtib edilmiş dərsliklər və dərsliklər üzrə hazırlanmış metodik vəsaitlərdə geniş yer tutur.

2. Dinləmə mətnləri şifahi və yazılı nitqin inkişaf etdirilməsi sistemində, ilk növbədə şagirdlərdə təlimə marağın yüksəldilməsi məqsədi ilə həyata keçirilir.

3. Dinləmə mətnlərinin didaktikasının şifahi nitqin inkişafında və ümumiyyətlə şagirdlərin təlimə marağının yüksəldilməsində rolu nəzəri və praktik cəhətdən inkaredilməzdir. Bununla belə, dinləmə mətnlərinin didaktikası, yəni tədrisi prinsipləri məktəblərin 2008-ci ildən bəri kurikulumla işləməsinə baxmayaraq, metodika elmində öz geniş şərhini bu vaxta qədər tapmamışdır. Keçirilən sorğularla müəyyən edilmişdir ki, nəinki praktik müəllimlər, hətta metodistlərin əksəriyyəti dinləmə mətnlərinin tədrisinin pedaqoji-psixoloji və metodik əsaslarından xəbərsizdirlər.

4. Araşdırmalar göstərdi ki, dinləmə mətnlərinin təlimi sistemi geniş anlayışdır. Bu sistemin hərtərəfli tədqiqi, təlimə marağın yüksəldilməsini, rolu isə əsas mətnin məqsəd və vəzifələrinin davamı və tətbiqini tələb edir.

5. Tədqiqatdan aydın oldu ki, dinləmə mətnləri ilə I -IV siniflər üzrə şagirdlərdə tədqiqatçılığa marağın yaradılması və yüksəldilməsi istiqamətində aparılacaq işlərin əsaslarının hazırlanması üçün, müntəzəm olaraq müəyyənedici eksperimentlərin keçirilməsi zəruridir. Məktəb təcrübəsini öyrənməklə, dərslik, metodik vəsait, şagirdin iş dəftəri müəlliflərinin, müəllimlərin fikirlərini dinləməklə, məlum olmuşdur ki, müəllimlər dinləmə mətnlərinin tədrisində hansı meyarlarla işləyəcəklərini, hansı üsullardan istifadə və tətbiq edəcəkləri ilə bağlı xeyli çətinliklərlə rastlaşırlar.

6. Tədqiqat işində maraqyaradıcı dinləmə mətnləri üçün nəzəri cəhətdən aşağıdakı kimi didaktik prinsiplər seçməyin vacibliyi sübut olunmuşdur:

1) Mətnlərin şagirdlərin yaş və anlama səviyyəsinə uyğun olmaqla elmə həvəs, təlimə maraq yaradıcı faktlar, hadisələrdən seçilməsi;

2) Mətnin öyrədicilik imkanlarına malik olması;

3) Mətnin kommunikativ xarakterə uyğun olması;

4) Mətnin elmi dünyagörüşü formalaşdırmaq və genişləndirmək məzmununa malik olması;

5) Mətnin əxlaqi-etik, ictimai-siyasi cəhətdən tərbiyəedici imkanlara malik olması və s.

7. Dərsliklərə dair metodik vəsaitlərin təhlili göstərmişdir ki, müəlliflərin seçdikləri mətnlər, əsasən, məqbul sayıla bilər. Onların içərisində uğurla seçilmiş "İsgəndərin hərb yürüşü", "Müdrik qoca", "Alim və cahil", "Balıqçı və səyyah" və başqaları nəinki dinləmə standartlarının reallaşması üçün məqsədəmüvafiq mətnlərdir, eyni zamanda şagirdlər onların hər biri haqqında ifadə və yaradıcı inşalar yazmağa həvəs göstərirlər.

8. Tədqiqat onu da göstərdi ki, dinləmə mətnləri üzərində nəinki MMV-lərdə göstərilən 12 meyar üzrə bacarıqlar həyata keçirmək olur, eyni zamanda digər meyarlarla da tədqiqatlar aparmaq şagirdlərdə təlimə maraq hissini yüksəldir. Tədqiqatçı bu mülahizənin öyrədici eksperiment sınağından çıxdığını əsas tutaraq, müdafiə müddəalarına daxil etmişdir.

9. Öyrədici eksperiment materiallarından mətn üzrə kompleks əməliyyatlara bunlar daxil edilmişdir:

1) Mətnin ədəbi tələffüzlə oxunması;
2) Mətnin məqsəd və intonasiyaya görə təhlilinin keçirilməsi;
3) Mətnin məzmun təhlilinin keçirilməsi;
4) Mətnin ideya istiqamətinin açılması;
5) Mətnin məzmunca genişləndirilməsi;
6) Mətnin dil və praktik üslubca təhlilinin keçirilməsi və s.

10. Dinləmə mətnlərinin yığcam olması motivasiya və qiymətləndirmə keçirmək üçün optimal vasitədir. Onlardan şagirdlərin ədəbi tələffüz vərdişlərinin inkişaf etdirilməsi və eşitmə vasitəsi kimi istifadə olunması metodikanı zənginləşdirən imkanlar və yollardır.

11. Dinləmə mətnləri üzərində aparılan maraqyaradıcı işləri həm didaktik, həm də metodik yeniliklər hesab etmək olar. Bu yeniliklər pedaqoji-psixoloji və metodik təfəkkürü zənginləşdirməyə hesablanmışdır. Azərbaycan dili fənn kurikulumu üzrə tədqiqatların MMV-lərdəki mətnlər üzərində aparılması da dil didaktikası və metodikasını zənginləşdirə bilər.

Tədqiqatın nəticələrini təkmilləşdirmək və Azərbaycan dili təlimində şagirdlərin nitqini, dinləmə bacarığını, formalaşdırmaq, lüğət ehtiyatını zənginləşdirmək məqsədilə aşağıdakı **təkliflər** irəli sürülmüşdür:

1. Müəllimlərə dinləmə mətnlərinin didaktikası və metodikası haqqında daha öyrədici məlumat və istiqamət vermək və dinləyib-anlama və danışma mətnlərinin fəndaxili əlaqə didaktikasını aşılamaq üçün, onları, qabaqcıl ibtidai sinif müəllimlərinin seminar-müşavirələrinə cəlb etmək lazımdır.

2. Gənc müəllimlərin metodikalarında dinləmə mətnlərinin məqsəd və funksiyasına uyğun işlərin əhatəsini genişləndirmək üçün kurikulum jurnallarının informasiya köməyindən maksimum yararlanmağa ehtiyac nəzərə alınmalıdır.

3. Ümumiyyətlə, Azərbaycan dilinin öyrənilməsi ilə bağlı tədqiqat aparanlara tövsiyə olunur ki, şagirdlərdə təlimə maraq hissinin yüksəldilməsini başlıca prinsip kimi götürsələr daha yaxşı olar. Bu prinsipə istinad etməklə uğurlu nəticələr əldə etmək üçün maraqlı mətnlər seçmək və interaktiv texnologiyalar, metodikalar tətbiq etmək daha uyğun olardı.

4. Dinləmə mətnlərinin əsas mətnlərdən həcmcə kiçik olması və bəzən motivasiya materialına (vasitəsinə) çevrilə bilməsi nəzərə alınmalıdır. Ən başlıcası isə, həmin mətnin suallarla zənginləşdirilərək, genişləndirilərək inşaya çevrilməsi və adsız olduğu təqdirdə onlara məzmununa uyğun müvafiq ad verilməsi pedaqoji innovasiya kimi yayılar və nəticələri metodikamızın müasir yeniliyi sayılardı.

**Dissertasiyanın məzmunu müəllifin çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Ramizzadə N.R. Dinləmə mətnlərinin nitq inkişafına təsiri // – Bakı: Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının Materialları, ADİU, – 2015, – s.314-315.

2. Ramizzadə N.R. Dinləmə mətnlərinin məzmununa verilən başlıca tələblər // – Bakı: Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı Materiallar, Qafqaz Universiteti, 17-18 aprel 2015, – s.1269-1270.

3. Ramizzadə N.R. Azərbaycan dili dərslərində dinləmə mətnləri motivasiya yaradıcı vasitə kimi // – Bakı: "B.Vahabzadə və Azərbaycan filologiyasının aktual problemləri" mövzusunda Beynəlxalq elmi konfransın Materialları, – 29 oktyabr, – 2015, – s.424-427.

4. Ramizzadə N.R. İbtidai sinif şagirdlərinin dinləmə bacarıqlarının inkişaf yolları // – Bakı: "Türk xalqları ədəbiyyatının aktual problemləri" mövzusunda Respublika elmi konfransının Materialları, BDU, –18 dekabr, – 2015, – s.320-323.

5. Ramizzadə N.R. Dinləmə mətnlərinin tərtibatına verilən tələblər // – Bakı: "Şagird nailiyyətlərinin qiymətləndirilməsi: məzmun və vasitələrin yaradılması problemləri" mövzusunda Beynəlxalq Elmi Konfrans, ARTPİ, – 2016, – s.122-123.

6. Ramizzadə N.R. Dinləmə mətnləri üzərində işin təşkilinin səmərəli yol və vasitələri // – Bakı: Gənc tədqiqatçıların IV beynəlxalq elmi konfransı, Qafqaz Universiteti, – 29-30 aprel, – 2016, – s.1398-1399.

7. Ramizzadə N.R. Dinləmə mətni anlayışının mahiyyəti və ana dili təlimində yeri // – Bakı: Doktorantların və gənc tədqiqatçıların XX Respublika Elmi Konfransının Materialları, ADNSU, – 24-25 may, – 2016, – s.397-399.

8. Ramizzadə N.R. İbtidai siniflərin Azərbaycan dili dərslərində dinləmə mətnləri vasitəsilə Azərbaycançılıq idealogiyasının təbliği // – Sumqayıt. Müasir dilçiliyin aktual problemləri, SDU, – 24-25 noyabr, – 2016, – s.340-341.

9. Ramizzadə N.R. Nitq fəaliyyəti zəminində tədrisində dinləmə mətnləri mühüm komponent kimi // – Bakı: Azərbaycan məktəbi, – 2017, – №6, – s.75-82.

10. Рамиззаде Н.Р. Умения слушания в программах и учебниках Азербайджанского языка: постановка пролемы // – Kiyev: Лıтература в Контекстı Кулътури, Киів, – 2017, – Випуск 28, – с.225-230.

11. Ramizzadə N.R. III sinif Azərbaycan dili dərsliklərində dinləmə mətnləri üzrə işin istiqaməti // – Bakı: Gənc tədqiqatçıların I Respublika elmi-praktik konfransının materialları, AU, – 20 aprel 2018, – s.219-220.

12. Qurbanov, V.T., Ramizzadə N.R. Dərsliklərdəki dinləmə mətnləri üzrə motivasiya dil təliminin ən vacib mərhələsi kimi // – Bakı: Azəbaycan dili və ədəbiyyatı tədrisi – 2018, – №3, – s.14-17.

13. Ramizzadə N.R. İbtidai sinif şagirdlərinin dinləmə bacarıqlarının inkişafı ilə bağlı məktəb təcrübəsinin öyrənilib ümumiləşdirilməsi // – Bakı: Doktorantların və Gənc tədqiqatçıların XXII Respublika Elmi Konfransının Materialları, ADPU, – 22-23 noyabr, – 2018, – s.364-366.

14. Qurbanov, V.T., Ramizzadə N.R. Məsələyə müasir baxış // – Bakı: Pedaqoji Universitetin Xəbərləri, – 2019, – № 4, – s.63-68.

15. Qurbanov, V.T., Ramizzadə N.R. IV sinifdə dinləmə mətnləri: təlim məqsədləri, məzmunu və metodları // – Bakı: Məktəbəqədər və ibtidai təhsil, – 2019, – № 2, – s.46-50.

16. Qurbanov, V.T., Ramizzadə N.R. Azərbaycan dil təliminə maraq yaradılmasında dinləmə mətnlərindən istifadə təcrübəsinə dair // – Bakı: Dil və Ədəbiyyat-Beynəlxalq Elmi-Nəzəri Jurnal, – 2019, – №2(110), – s.347-349.

17. Агаева Н.Р. Место и роль аудирования в реализации требований учебников азербайджанского языка // – Пенза: Наука, образование, инновации: актуальные вопросы и современные аспекты сборник статей X международной научно-практической конфереферниции, – 2021, – с.87-90.

18. Ağayeva N.R. Azərbaycan dili kurikulumunda dərsliklər üçün hazırlanmış metodik vəsaitlərdə dinləmə bacarıqları problemi // – Bakı: Dil və Ədəbiyyat-Beynəlxalq Elmi-Nəzəri Jurnal – 2022, – № 1 (118), – s.204-206.

19. Ağayeva N.R. Dinləmə mətnlərindən istifadənin pedaqoji-psixoloji şərtləri // – Bakı: “Azərbaycan dili və ədəbiyyat tədrisi”, elmi-metodik jurnal, – 2024, – №2, – s.74-82.

20. Ağayeva N.R. İbtidai siniflərdə dinləmə mətnləri üzərində aparılan didaktik işlərin sferası // – Bakı: “Məktəbəqədər və ibtidai təhsil”, elmi-metodik jurnal, – 2024, – №2, – s.45-57.

Dissertasiyanın müdafiəsi 24 yanvar 2025-ci il tarixdə saat 14:00-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 68, AZ1000.

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron nüsxələri Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 24 dekabr 2024-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:  23.12.2024
Kağızın formatı: $60x84^{1/16}$
Həcm: 36001
Tiraj: 100